Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçirilən SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalı başlayır.

Beynəlxalq səviyyədə təşkil olunan SAF 2023 "Robokids", "Engineers of Future" - "Gələcəyin mühəndisləri", "First LEGO League Explore", "VidX", "First LEGO League Challenge", "VEX Robotix Competition" - "VEX Robototexnika müsabiqəsi", "Innovativ Exhibition" - "İnnovativ sərgi", "Deep Dive" "Sualtı dronlar/gəmi", "Hackathon", "VEX IQ Competition"- "VEX IQ Yarışması", "Mechatronics" - "Mexatronika", "Wings and Wheels" - "Qanadlar və təkərlər", "FlyTech", "Boat Racing" - "Gəmi yarışması", "H2 Grand Prix PRO" adlı ümumilikdə 12 yarış, 15 yaş kateqoriyası üzrə, həmçinin 1 kateqoriya üzrə innovativ layihələr sərgisi formatında keçiriləcək.

Festivalın final mərhələsində 11 ölkə təmsil olunur. Final mərhələsində ümumilikdə 868 yerli, 159 xarici iştirakçı yarışacaq.